

## *Saqif QARATORPAQ*

* * *

Ömrün-günün sevinci az, qəmi çox...
Gah solunda, gah sağında üşüdüm.
İtib batdım qayğıların içində,
Bir sevdanın sorağında üşüdüm.

Bir dərvişəm, kimə doğma, kimə yad...
Nə kimsədən kömək umdum, nə imdad.
Pərvazlanıb açanacan qol-qanad,
Bir səhranın qurağında üşüdüm.

Misra-misra uraladım söz ömrü,
Hər insanın öz acısı, öz ömrü.
Yana-yana kül elədim köz ömrü,
Bir baxışın sazağında üşüdüm.

Külək əsdi, qapımızı qar aldı...
Ya mən kürəm, ya da baxtım cığaldı.
Bir ümidin ilməsində saraldım,
Bir gümanın marağında üşüdüm.

Keçib getdim, yollar, izlər tanışdı,
Bir də gördüm üzüm-gözüm qırışdı...
Suya dönən qismətimlə barışdım,
Bir gözəlin yanağında üşüdüm...

* * *

Daha bitməz, bu sınığı ha sarı,
Ölənəcən su damacaq bu çatdan.
Bir də gördün uçub çaya töküldü,
Elə yuyub sal qayanı sel altdan.

Kimə yaxın, ancaq kimə uzaqdı,
Sevincimi göz yaşıma bükməyim.
Bu ağrını çəkən bilir, asanmı,
Ürəyimi misra-misra sökməyim.

Keçib gedər, bel bağlama hər yaza,
Naşı olan xoş avaza aldanar.
Şaxta vurub çiçəyini apardı,
Xumarlanıb tez açmışdı alçalar.

Yaxşı gördüm, öz payımı götürdüm,
Tez öyrəndim hər dərsini dərdimin.
Ürəyimdə bir anadil oxuyur,
Xəbəri yox... xəbəri yox heç kimin.

Elə yanıb əlim, bir də uzanmaz
Innən belə bir çiçəyin ətrinə.
Bir ömürü hər gün yelə sovurdum,
Yaşayıram bir sevdanın xətrinə.

Gecə keçir... yuxum qaçıb... divarda
Saat qaçır, baş ağrıdır çıqhaçıq...
Ömür-gündü bir gün bitər, nə fərqi,
Istəyirsən, yüz toplayıb, yüz də çıx.

Lap üzdəymiş çox sualın cavabı,
Çox axtarıb, çox gəzmişik dərində.
Vallah, insan divardakı saatmış,
Hər gün qaçıb, ancaq sayıb yerində.

Bir qismətmiş bir gecəlik yuxu da,
Nə dəyişər, qınasam da baxtımı?
Saat girib ürəyimlə yarışa,
Uzadarmı, qısaldarmı vaxtımı?

Çimib çıxır ay işığı içindən,
Günahını ağac yuyur, daş yuyur.
Dirsəklənib hasarlara, evlərə,
Yorğun yollar asta-asta uyuyur.

Yavaş-yavaş ay gizləndi buludda,
Bağ-baxçanı qucaqladı qəfil çən.
Hamı yatıb, ikimizdən savayı,
Dərdləşirik... bir saatdı, bir də mən..

* * *

Baş aça bilmirəm hərdən özümdən.
Heyif... çox çətindi məni anlamaq.
Hələ ki vaxtın var, nolar, dön geri,
Bir bax, şər qarışdı, başladı sazaq...

Yıxılsan, tutmağa bir ağac da yox,
Mən sənə demişdim... demişdim axı!
Mən gedən yollarda körpülər uçur,
Mən gedən yollara yağışlar yağır...

Payız çiçəyini yellər qurudar,
Donar, çıxan günə aldanan arı.
Ömrün yoxuşları daha qırovdu,
Üşüdər əlini saçımın qarı.

Nə olsun, könlümdə çiçək arzusu,
Çatam, ya çatmayam gələn bahara.
Bu da bir qəzadı... görüşdük, qayıt...
Vaxt dolu ələyir daha yollara.

Hər gedən nəyisə aparıb gedir,
Boş qalır sinəmdə bir sözün yeri.
Üzünü söykəyib yaş pəncərəmə,
Bir misra üşüyür axşamdan bəri...

* * *

Bu gecə oyandım yağış səsinə,
Deyəsən gəlməyə tələsir bahar.
Sinəsi tutulan qoca kimidi
Nəfəsi təngiyən boz navalçalar.

Külək cırmaqlayır yaş şüşələri,
Yaman taqqıldayır cardağın damı.
İndi bir ananın qaçıb yuxusu,
İndi bir atanın ürəyi damır...

Büzüşüb, hasara sığınıb göyəm,
Təkliyin acısı bu imiş demək...
Mən yaxşı bilirəm nədir ayrılıq...
Niyə gümüldənir sinəmdə ürək...

Halını pozmayıb durur qoca tut,
Nə yağmur, nə külək gəlmir eyninə.
Üşüyür cığıra düşən ağ işıq,
Göylər buludları geyib əyninə.

Gəzib uzaqları döndü xəyalım,
Nə vaxtdı içimdə bir arzu mələr.
Gecələr narahat yatan adamı
Ya yağış oyadar, ya xatirələr...

* * *

Başını götürüb qəfil gedəsən,
Bu gidi dünyada izin qalmaya.
Səni qıranların, incidənlərin
Səndən danışmağa sözü qalmaya.

Elə çəkiləsən sonsuzluğa ki...
Əli boşda qala axtaranların.
İtəsən, batasan səssiz, soraqsız,
Nə yad xəbər tuta, nə yaxınların.

Köçəsən, bənövşə köç edən kimi,
Nə bir yarpaq duya, nə bir kol bilə.
Qoşulub gedəsən səhər yelinə,
Gedəsən... nə yolçu, nə də yol bilə..

İtirə izini təzə yağan qar,
Ağaca dönəsən, daşa dönəsən.
Adını siləsən xatirələrdən,
Günahsız bir gözdə yaşa dönəsən.

Üz tutub gedəsən son zirvəyəcən,
Qarışıb sulara günahın itə.
Sonuncu nəfəsin dəydiyi yerdən
Bir palıd göyərə, bir lalə bitə.

* * *

Gecəni soyunub çıxır
Hər səhər vaxt üzümüzə.
Qəmi axşama saxladım,
Sevinci verdim gündüzə.

Bu günə, dünəndən qalan
Bir içim boyat duyğular...
İsinməyə köhnə soba,
Üşüməyə bol soyuq var.

Çəkib göyün pərdəsini
Üfüqdən boylandı günəş.
Körüklədim, alovlandı
Sinəmdə közərən ataş.

Barmağımı çox qatladım,
Axırda itirdim sayı.
Yaxasına gül taxmasam,
Bu gün də o günün tayı.

Bilmirəm, harda gizlədim,
Ətəkdən uzun əlimi.
Nə qədər günaha batıb,
Göz yaşım yusun əlimi.

Nə qismətdən giləyləndim,
Nə də ki qınadım baxtı.
Özümü evdə unutdum,
Xəlvətcə qapıdan çıxdım.

* * *

Bu necə görüşdü, niyə belə gec?
Beləmi axtarar adam adamı?
Sənin gözlərində bahar buludu,
Mənim ürəyimdə payız axşamı...

Bu necə taledi, bu necə baxtdı?
Hardaydın, yaşımın gözəl vaxtında?!
Tanrının lütfümü? Səni göndərib,

Çox heyif, saçımın xəzəl vaxtında.
Ağrı-acılıdı ömrün qürubu,
Nə vaxtdı təngiyir sinəmdə ürək.
Bir gün biləcəksən, necə çətindi

Üşüyən bir qəlbi isidə bilmək...
Hıçqıran hər misra canımdan qopur,
Qəm yemə, könlümün odu azalsa.
Axtarıb kül altdan çıxaracaqlar

Barı bircə şerim tər-təzə qalsa...
Çox gecdi... axşamın sazağı düşdü,
Uçuşur havada qar dənələri.
Gəlmisən, qapıda niyə durmusan?
Gəlmisən, utanma, buyur içəri.

### Yuxulu şeir

Yenə evin soyuqdu,
Bürünmüsən şalına.
Gözlərin pəncərədə,
Nə gəlir xəyalına?

Kibritinmi qurtarıb
Sobanı yandırmağa?
Kimsəyə bir söz demə,
Özüm gedim almağa.

Bir kövrək xatirəmi
Yaddaşını qanadıb?
Ya xətrinə dəyən var,
Söylə, burax inadı?

Xəbərin yox, soyuyub
Özünə süzdüyün çay.
Tərləyən pəncərəndən
Boylanır beşgünlük ay...

Necə şirin yuxudu,
Yumulur kirpiklərin.
Yuxuda da üşüyür,
Qanı qaçmış əllərin.

Çiçək açıb çöl, çəmən,
Bulaq üstə çatmısan...
Dirsəklənib masaya
Mışıl-mışıl yatmısan...

Qəfil döyülür qapı,
"Kim ola axşam-axşam?"
Deyir:-Mənəm, qonşuyam,
Sizə kibrit almışam...

* * *

Axı, nə yazım bu yaşda,
Bax, saçlarım qardan betər.
Ürəyim budaqda qalan
Şaxta vurmuş nardan betər.

Nə yazım, gəlsin xoşuna
Ürəyinə səp su kimi.
Son nəğməmi oxuyuram,
Tənha qalan bir qu kimi.

Bəlkə ömrün son qışıdı,
Bir də çatmadım bahara.
Mən gedən izi tutub gəl,
Zalım, məni hərdən ara.

Unudur verdiyi sözü,
Heyif, unudur adamlar.
Son dəfə gəl, döy qapımı,
Kəndimizə yağanda qar.

Qorxma, donan əllərini
Nəfəsimlə isidərəm.
Tut əlimdən bircə dəfə,
Ölümə desən, gedərəm!

Çoxdan çıxıb gedəsiydim,
Qalmışam sənin xətrinə.
Qoy uzansın qış gecəsi,
Batım saçının ətrinə!

### "Komandir, məni yerə qoy, üşüyürəm... "

**1**

Üşüyür bir qara kəlağayı,
bir ana ürəyində qışdı...
Üşüyür bir ata həsrəti,
bacı könlündəki toy həvəsi,
bir gözəlin külə dönmüş səsi...
Üşüyür dodaqlarda ah,
üzlərdə təbəssüm,
gözlərdə kədər...
Üşüyür bir həyət-baca,
qoca tut,
hasar dibindəki qızılgül qönçələri.
Bir də əllərin dəyməyəcək
dünyadan xəbərsiz
xırdaca körpə əlləri...
Üşüyür köhnə qapı,
nəm çəkmiş pəncərə,
bir yetim otaq.
Divarda yatmış saat,
ortada masa.
Masanın üstündə qələm,
saralmış varaq və "Əlvida silah".
Üşüyür dağlar... bulaqlar...
Qanınla suvardığın torpaq.
Mazarını qucaqlayıb isinər...

**2**

Qaçır ayaqları...
Qaçıb çata bilmir arxasınca,
dağ-dağ, zirvə-zirvə aşır,
uçur ayaqları;
Uçub Murovdan keçir,
vecinə almır çəni, dumanı.
Bu da Kəlbəcər...
Bu da Turşsu...
Özünü vurur suya.
Oxxayyy... nə gözəl!
Dizlərinin sızıltısı dinir,
canının üşütməsi keçir,
gözləri yumulur yavaş-yavaş...
Sonra... qalxır ayağa,
şıxıyır irəli,
bir əlində bayraq,
bir əlində silah,
Qəzbini güllə-güllə səpir hədəfə.
... və bu an,
Oyanır yuxudan,
Xəyalları düşür suya,
Qərq olur bəmbəyaz bir boşluğa.
Düşünür, düşünür...
Əzabdı
gözəl yuxulardan oyanmaq,
əzabdı bəzən yaşamaq...
ancaq, neyləmək?
Yaşamağa məhkumsan demək,
gedənlərin xatirinə,
sevənlərin xatirinə.